

Xanəli Kərimli

## SONRA GEC OLAR

Baş alıb gedirəm dərdimlə qoşa
Arxadan boy verən göz yaşlarıdır.
Üfüqdən əl edən nigaran ruhlar
Ömrümün, günümün sirdaşlarıdır.

Bir boş yer görünür ruhlar yanında,
O mənim ruhumun yeridir bəlkə.
Təpədən dırnağa gəzdim dünyanı,
Tapmadım ruhuma doğma bir ölkə!

Doğmalıq qalmayıb daha dünyada,
Sərhədlər yıxıldı, sərhədlər bitdi.
Bir ocaq başında çörək kəsənin
Qəlbində mərhəmət, insanlıq itdi.

Bu “Ali bəşərin”, “Ali varlığın”
Nə astarı bəlli, nə üzü bəlli.
Dünən bir, bu gün bir sifət içində?
Nə əməli bəlli, nə sözü bəlli.

Hara gedirik biz, hara, ay insan?!
Tükənib, bitib ta yol, ünvanımız.
Sənin öz dünyandan xəbərin yoxdur.
Qalmayıb nə ədəb, nə ərkanımız.

Quşda, qarışqada, böcəkdə belə,
Olan ünsiyyətdən insanda yoxdur.
Soyuyub, yadlaşıb, daşlaşıb insan -
Daşdan da daş olub, əsəri yoxdur.

Bəzən düşünürsən, donur qəlbdə qan.
Gündə bir möcüzə kəşf edən insan,
Bəs niyə özünü kəşf edə bilmir!?
Küllü-kainatı “dərk edən” insan
Niyə bəs özünü dərk edə bilmir!?

Hələ ki, bir damla sevgimiz qalıb,
Hələ ki, bir damla əxlaqımız var,
Abırla köçməyin vaxtıdır, Allah!..
İnsanlıq can verir - sonra gec olar...

## ƏLİNƏ ƏL YETMƏZ...

Taleyin öz yolu, öz ünvanı var,
Nə qədər cəhd etsən, dəyişməz yolun.
Tale var, gədanı şahənşah edər,
Tale var, şahın da bağlar əl-qolun.

“Səadət hər kəsin öz əlindədir”
Deyən qələmdaşım, bəlkə də, haqdır.
Ancaq qismətində yoxsa səadət,
Dağa-daşa düşmək, vallah, nahaqdır.

Başı ucaldan da, endirən də Haqq.
Beləysə, baş qızıl olsa, nə gərək.
“Yazıya pozu yox” deyir kitablar,
Onda yazımızla bəs biz neyləyək?

Ha qaçdım, yüyürdüm, gah da ki, qovdum.
Mənim öz əzabım qaldı özümə.
Min dəfə diz çökdüm Haqqın önündə,
Haqq məhəl qoymadı bircə sözümə.

Haqqın ucaltdığı qaçaqdır haqdan.
Haqqa əyiləndən haqq qaçaq düşüb.
Fələyin gərdişli tərəzisində
Nahaqq ağır gəlir, haqq qaçaq düşüb.

Əlinə əl yetmir, dilinə də dil,
Deyəsən “Özün seç yaxşı-yamanı”.
Haqqı dananların kef üstə kefi,
Bəs Haqq aşiqinin xoş günü hanı!?..

## İŞIĞA CAN ATIB ÜRƏYİM HƏR AN

Mənim ürəyimə işıq ver, Allah,
Dünya işığını, qoy, məndən alsın.
Bu nə bir şöhrətdir, nə də ki qərəz,
Sadəcə arzudur, arzum yer alsın.

İşığa can atıb ürəyim hər an,
Əritsin qəlbimin qaranlıqların.
Yoğursun işıqla yoğrulanları,
Qoysun ortalığa könlünün varın.

İşıqdan işığa işıq tutaraq
Qovuşsun ürəyim söz işığına.
Sözdən işıq alan işıqlı sözlər
Dönsün bu dünyanın yaraşığına.

Dünyanın dünyası söz işığında
Arınıb, durulub, saflaşsın bir az,
Sözə təslim olsa insanlıq əgər,
Kimsənin qəlbində işıq azalmaz.

Sözün işığından güc alıb bəlkə,
Günəşin işığı sönməz olubdu.
Yerdən kainatın sonsuzluğuna
Tək sözün işığı dönməz olubdu.

...Mənə söz işığı, söz nuru göndər,
Açım bu dünyanın kilidlərini.
Sözə tapındırım, sözə yenildim
Şeytana baş əyən hər bəşərini

## ÇƏTİN

Bir vaxtlar “dost-tanış” başımda idi,
İndi bir zəngə də yoxdur gümanım.
Özüm öz içimdə təlatümdəyəm,
Tufanlı dənizdir mənim hər anım.

Hər anım qərq olur düşüncələrdə,
Ələyib kəpəyin qatıram una.
Nə qədər çalışıb-çapalasam da,
Düşürəm zamanın burulğanına.

Nə qədər çəkəcək bu qovhaqovlar...
Elə hey vuruşda, döyüşdəyəm mən.
Təzədən dünyaya gəlməyəcəm ki,
Bir yol da xoş üzün göstərsin aləm.

Kim nə aparıbdır qara torpağa?
Mənim apardığım nə olacaqdır?
Kimdən nə qalıbsa bu ac dünyaya,
Məndən də bir quru ad qalacaqdır.

Nizamı pozulub nizam quranın,
Sanki Ayla Günəş dəyişib yerin.
Az qalıb Yer çıxa öz məhvərindən,
Qaçıbdı rəngi də dibsiz göylərin.

Bir də çətin gələ elə bu dünya,
Nə dağda qarı var, nə bağda barı.
O qədər gözümdən düşdü ki dünya -
Bir toz dənəsi tək yox etibarı...